Azərbaycanın vergi xəbərləri

UOT 332.025:631.155:

# Kənd təsərrüfatında istehsalın tənzimlənməsinin mövcud sisteminin təhlili

**Əhmədzadə Emin Nemət oğlu***
Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının
İqtisadiyyatı və Təşkili İnstitutunun doktorantı

**Xülasə**

*Tədqiqatın məqsədini* - kənd təsərrüfatı istehsalının tənzimlənməsinin mövcud sisteminin təhlili və ehtiyatların aşkara çıxarılması təşkil edir.

*Tədqiqatın metodologiyası* - sistemli yanaşma, müqayisəli təhlil, deduktiv metod.

*Tədqiqatın nəticələri* - cari və yaxın perspektivə ehtiyatların aşkara çıxarılması, kənd təsərrüfatı istehsalının tənzimlənməsinin səmərəliliyinin yüksəldilməsi üçün hazırlanmış təkliflər.

*Tədqiqatın məhdudiyyətləri* - daha geniş emprik bazada araşdırma tələb edir.

*Tədqiqatın praktiki əhəmiyyəti* - kənd təsərrüfatı istehsalının tənzimlənməsinin mövcud sisteminin təkmilləşdirilməsi.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* - tədqiqat ənənəvi və kreativ yanaşmaların orijinal surətdə qovuşdurulmasıdır.

**Açar sözlər:** *aqrar sektor, tənzimləmə, qiymət və vergilər.*

## 1. Giriş

Xalis bazarın müasir dünyada utopiya olması aşkar olduqca, bazarın tənzimlənməsi zərurətini dəfələrlə əsaslandırmaq barədə mülahizələrə olan ehtiyac aradan qalxır. Bununla belə, alternativ fikirlərin mövcudluğu və onların təşviqinin vacibliyi, çoxvektorlu intensiv inkişaf imkanlarının genişliyi və bu kimi digər amillər, iqtisadi tədqiqatlarda tənzimləmənin yeri və roluna münasibətlərin dəqiqləşdirilməsini tələb edir.

*Bakı, AZ 1130, 7-ci mikrarayon, Dərnəgül 3097
emin_ehmedzade@rambler.ru



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

Əlbəttə, direktiv planlaşdırmanın yaxın keçmişə dair nəticələri, digər tərəfdən bazar özünütənzimləməsinin təsir gücü və geniş dairəsi də nəzərdən qaçırılmamalıdır. Bazar avtomatizmi ("görünməz əl") və dövlət tənzimlənməsinin zaman və məkan parametrlərinin dəqiqləşdirilməsi, tənzimləmənin zəruri olduğu fəaliyyət dairələrinin müəyyənləşdirilməsi xüsusi aktuallıq kəsb edir. Qeyd olunanlar, kənd təsərrüfatının inkişafının tənzimlənməsinin mövcud sisteminin səciyyələndirilməsi, o cümlədən:

- intensiv inkişafın tənzimlənməsi zəruri olan parametrlərinin seçiminin əsaslandırılması;
- intensiv və innovasiyalı inkişafın stimullaşdırılmasının hüquqi, maliyyə, institutsional vasitələrindən fəal istifadənin zəruriliyi baxımından xüsusi diqqətə layiqdir.

Əslində, belə yanaşma kənd təsərrüfatının intensiv inkişafının tənzimlənməsi sistemi qarşısında duran əsas vəzifələrin icrası vəziyyətinin qiymətləndirilməsinə yönəlmişdir ki, bu da tədqiqatımızın predmetinə daxildir.

## 2. Tənzimlənmə sisteminin göstəricilərinin xarakteristikası

Kənd təsərrüfatının inkişafının tənzimlənməsinin mövcud sisteminin xarakteristikası baxımından, təhlili zəruri olan göstəricilər sisteminin tərkibinə münasibətdə aşağıdakı yanaşmanı diqqətəlayiq hesab edirik [1, s. 176]:

- natural ifadədə məhsul istehsalı və satışı;
- ümumi məhsul istehsalı (cari ilin qiymətləri ilə baza ilinin əsas qiymətləri ilə müqayisədə);
- satılmış məhsul (cari ilin qiymətləri ilə);
- aralıq istehlak xərcləri (cari ilin qiymətləri ilə);
- yeni yaradılmış əlavə dəyər (cari ilin qiymətləri ilə);
- əlavə dəyər vergisinin artıq (yaxud çatışmayan) hissəsi;
- əlavə dəyər vergisindən başqa istehsala tətbiq edilən vergilər;
- vəsaitlərin icarəyə verilməsindən və satışından əldə olunan gəlir;
- istehsala subsidiyalar;
- amortizasiya ayırmaları;
- icarə haqqının ödənilməsi;
- faiz ödəmələri;
- cəlb edilmiş işçilərin əməkhaqqına və sosial sığortaya ödənişlər;
- xalis gəlir;
- əsas istehsal fondları;
- işçilərin orta illik sayı;
- orta aylıq əməkhaqqı;
- əmək məhsuldarlığı;
- fondla silahlanma və fond verimi".

Müasir zamanda kənd təsərrüfatında davam etməkdə olan vergi tətilləri (vergilərlə əlaqədar güzəştlər və s.) yuxarıda sadalanan göstəricilərin bu çevrədə dolğun təhlilinin aparılmasına məhdudiyyətlər gətirir. Burada, həmçinin, təsərrüfat fəaliyyətinin əksər aralıq göstəricilərinin müstəqim və birbaşa tənzimlənməsinin qeyri-mümkünlüyü də qeyd olunmalıdır. Əlbəttə, bunlardan başqa digər göstəricilər də aqrar sahədə intensiv inkişaf imkanlarını səciyyələndirmək baxımından bərabər rola malik deyildir.

Bazar münasibətinin formalaşması və inkişafı dövründə qiymət amilinin önə çəkilməsi məqsədə müvafiqdir. Aqrar sahənin inkişafının tənzimlənməsinin fəaliyyətində olan mexanizmində qiymət amilinin imkanlarından istifadə səviyyəsi yüksəldilməlidir. Gələcək məhsulun istehsalı prosesinin etibarlı maliyyələşdirilməsi zəmanətli qiymətlər sistemindən istifadəni nəzərdə tutur.

Müsbət haldır ki, təklifin nizamlanması hesabına tənzimlənən və istehsalının subsidiyalaşdırılan ərzaqlıq buğdanın pərakəndə satış qiymətlərində həm istehsalçı, həm də son istehlakçı mənafeyi nəzərə alınır. Digər kənd təsərrüfatı məhsullarının qiymət tənzimlənməsində fəallığının artırılmasına ehtiyac vardır. Bu, xüsusilə ilkin halda müxtəlif kanallarla satışı imkanları məhdud olan texniki bitkilərə aiddir.

Respublikamızda tütünçülüyə sifarişlə işləyən sahə kimi yanaşılması təcrübəsi vardır. Belə ki, bir il ərzində gələcək tütün məhsulunun xərclərinin bir hissəsini ödəyən emal müəssisələri əhəmiyyətli nəticələrə nail olmuşdurlar. Şəkər çuğunduru istehsalında sözügedən yanaşmanın təkmilləşdirilmiş forması tətbiq edilmişdir. Zənnimizcə, bu təcrübənin müasir reallıqları nəzərə almaqla geniş tətbiqi məqsədəuyğundur.

Kənd təsərrüfatı müəssisələri, ailə-kəndli və ev təsərrüfatları tərəfindən müxtəlif kanallarla reallaşdırılan kənd təsərrüfatı məhsullarının qiymətlərinin səviyyəsi və dinamikasını xarakterizə edən kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri indeksi bu baxımdan xüsusi diqqətə layiqdir.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirləri səviyyəsinə ciddi təsir edən bu qiymət indekslərinin dəyişməsi məlumatları, həm ayrı-ayrı məhsullar, həm də bütövlükdə bitkiçilik və heyvandarlıq üzrə bazarda tələb-təklif nisbətinə tənzimləyici münasibətin fəallığına dair mülahizələr üçün əsas olur.

Bitkiçilik məhsulları üzrə əvvəlki ilə faizlə hesablanan istehsalçı qiymətləri indeksində ən böyük artım 2007-ci ildə, azalma isə 2009-cu ildə müşahidə olunmuşdur.

Cədvəl 1-də  kənd təsərrüfatı məhsullarının əvvəlki ilə faizlə hesablanan istehsalçı qiymətlərinin indeksi əks etdirilmişdir.

Kartofun istehsalçı qiymətləri indeksində ümumilikdə bitkiçiliyə xas olan meyil müşahidə edilmişdir. Digər bitkiçilik məhsulları üzrə istehsalçı qiymətləri indeksində fərqli dinamika baş vermişdir.

Maraqlıdır ki, kənd təsərrüfatı məhsullarının əvvəlki ilə faizlə hesablanan istehsalçı qiymətləri indeksinin dinamikası bitkiçilik məhsullarına, xeyli dərəcədə oxşardır.

2006-2009-cu illər ərzində bütövlükdə heyvandarlıq məhsullarının əvvəlki ilə faizlə hesablanan istehsalçı qiymətləri indeksində, tərəddüdlərlə enmə müşahidə olunur.

*Cədvəl 1. Kənd təsərrüfatı məhsullarının əvvəlki ilə faizlə hesablanan istehsalçı qiymətləri indeksi - 2006-2009-cu illər*

| Məhsullar | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|
| Dənli bitkilər | 93.8 | 110.7 | 133.7 | 89.7 |
| Kartof | 124.6 | 172.5 | 97.4 | 95.4 |
| Tərəvəz | 106.1 | 117.4 | 102.1 | 99.5 |
| Meyvə | 112.6 | 117.9 | 103.5 | 104.4 |
| Bitkiçilik məhsulları | 106.8 | 114.6 | 111.4 | 97.1 |
| İri buynuzlu qaramal | 108.0 | 113.3 | 121.0 | 107.0 |
| Diri quşlar | 91.1 | 80.0 | 106.3 | 83.1 |
| Süd | 96.8 | 101.3 | 130.5 | 112.3 |
| Yumurta | 97.1 | 102.5 | 107.8 | 74.6 |
| Heyvandarlıq məhsulları | 110.4 | 110.6 | 112.5 | 100.4 |
| Kənd təsərrüfatı | 108.4 | 113.2 | 112.5 | 100.3 |

*Mənbə: Azərbaycanın statistik göstəriciləri.Bakı, Səda, 2010. 423 s.*

Sahənin ayrı-ayrı məhsulları üzrə müvafiq göstəricilərdə oxşar meyillər (süd məhsulu istisna olmaqla) hiss olunur.

Kənd təsərrüfatında istehsal xərclərinin səviyyəsi və strukturu inkişafın tənzimlənməsinin mövcud sisteminin səciyyələndirilməsi baxımından mühüm əhəmiyyətli göstəricilərdir. Kənd təsərrüfatında istehsal xərclərinin strukturunda ayrı-ayrı xərc maddələrinin xüsusi çəkilərində, əsas vəsaitlərin amortizasiyası və sair xərclər maddəsi istisna olmaqla, 1995-2009-cu illər ərzində azalmaya meyil müşahidə olunur.

Bununla belə, kənd təsərrüfatında istehsal xərclərinin strukturunda əməyin ödənişinin xüsusi çəkisi 2000-2009-cu illər ərzində artmışdır. Məhz həmin dövrdə əsas vəsaitlərin amortizasiyasının xüsusi çəkisində azalma baş vermişdir. Haqqında danışılan dövrdə, material xərclərinin xüsusi çəkisi 56.7%-dən, 46.2%-ə enmişdir.

Cədvəl 2-də kənd təsərrüfatında istehsal xərclərinin strukturu əks etdirilmişdir.

Bitkiçilik məhsulları istehsalı xərclərinin strukturunda, əsas xərc maddələri üzrə xüsusi çəkilər (2009-cu ildə) heyvandarlığa nisbətən aşağıdır. Belə ki, 2009-cu ildə bitkiçilik və heyvandarlıqda əməyin ödənişinin istehsal xərclərinin strukturundakı payı müvafiq olaraq 28.6% və 37.4% təşkil etmişdir. Material xərcləri üzrə həmin göstəricilər, müvafiq olaraq 49.6% və 52.9%, əsas vəsaitlərin amortizasiyası üzrə 4.8% və 5.9%, sığorta ödəmələri üzrə 0.1% və 0.5% olmuşdur. Deməli, heyvandarlıqda istehsal

*Cədvəl 2. 1995-2009-cu illərdə kənd təsərrüfatında istehsal xərclərinin strukturu (%-lə)*

| Göstəricilər | 1995 | 2000 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|---|
| Əməyin ödənişi | 33.7 | 19.3 | 29.5 | 27.4 | 31.7 | 30.2 | 29.6 |
| Material xərcləri | 47.8 | 56.7 | 59.1 | 53.7 | 51.1 | 49.3 | 46.2 |
| Əsas vəsaitlərin amortizasiyası | 1.6 | 7.1 | 9.3 | 8.9 | 4.9 | 4.1 | 4.6 |
| Sığorta ödəmələri | 3.3 | 0.3 | 0.3 | 0.3 | 0.3 | 0.2 | 0.2 |
| Sair: | 13.6 | 16.6 | 1.8 | 9.7 | 12.0 | 16.2 | 19.4 |
| Xərclər, cəmi | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |

*"Azərbaycanın kənd təsərrüfatı. Statistik məcmuə. Bakı, 2010. s.142" materialları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

xərclərinin strukturunda "sair" adlı xərclər bitkiçiliyə nisbətən daha böyük xüsusi çəkiyə malik olmaqla, daha geniş nomenklaturanı əhatə edir.

Material xərcləri kənd təsərrüfatı istehsalının strukturunda ən böyük xüsusi çəkiyə malikdir və ümumi həcmin təqribən yarısını təşkil edir. Kənd təsərrüfatı istehsalına material xərclərinin özünün strukturunun təhlili tənzimlənən göstəricilərin dinamikasına münasibət bildirməyə imkan verir.

1995-2009- cu illər üzrə toxum və əkmə materiallarının kənd təsərrüfatı istehsalına material xərclərində payı artaraq 6.6%-dən 26.2%-ə çatmışdır. 2000-ci ildən sonrakı dövrdə də əhəmiyyətli artım müşahidə olunmuşdur. Həmin dövrdə yemlə, elektrik enerjisi ilə, ehtiyat hissələrlə təminat xərclərinin kənd təsərrüfatı istehsalına material xərclərində payı aşağı düşmüş, digər maddələr üzrə bir qədər artma baş vermişdir.

Cədvəl 3-də 1995-2009-cu illərdə kənd təsərrüfatı istehsalında material xərclərinin strukturu verilmişdir.

Kənd təsərrüfatı istehsalına material xərclərinin strukturunda kənar təşkilatların göstərdikləri xidmətlərə görə ödənişlərin xüsusi çəkisinin dinamikası, tənzimlənən əlaqələrin artmasını göstərir. 1995-ci ildə bu göstərici 10.4%, 2000-ci ildə 10.9% olduğu halda, sonrakı illərdə kəskin artım baş vermiş və 2009-cu ildə 27.6% səviyyəsinə çatmışdır. Material xərclərinin strukturunda ən böyük paya malik bu xərc maddəsinin qeyd olunan dinamikası şumlama, malalama, yığım və digər əməliyyatlarda kənar təşkilatların fəallaşan iştirakına dəlalət edir.

Aparılmış müşahidə və araşdırmalar bir sıra hallarda fiziki şəxslərin, daha doğrusu, texniki vasitələrə malik traktorçuların, kombaynçıların, təmirçilərin və başqalarının aqrotexniki əməliyyatlara cəlb olunduğunu göstərir. Qeyd olunan tərəfdaşlarla münasibətlərin tənzimlənməsi imkanları məhduddur. Belə ki, bu halda tariflərdən daha çox, qarşılıqlı razılaşma əsasında müəyyənləşdirilən ödəniş şərtləri tətbiq edilir.

*Cədvəl 3. 1995-2009-cu illərdə kənd təsərrüfatı istehsalında material xərclərinin strukturu (%-lə)*

| Göstəricilər | 1995 | 2000 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|---|
| Toxum və əkmə materialları | 6.6 | 14.3 | 24.9 | 24.2 | 23.6 | 27.7 | 26.2 |
| Yem | 17.0 | 19.3 | 19.5 | 17.5 | 16.8 | 15.1 | 15.6 |
| Sair kənd təsərrüfatı məhsulları | 0.5 | 0.1 | 0.2 | 0.4 | 0.1 | 0.1 | 0.1 |
| Mineral gübrələr | 4.3 | 3.9 | 8.7 | 8.7 | 17.1 | 9.5 | 9.3 |
| Neft məhsulları | 42.9 | 12.7 | 12.3 | 12.7 | 11.0 | 12.1 | 11.2 |
| Elektrik enerjisi | 8.7 | 30.5 | 0.7 | 0.5 | 1.4 | 1.1 | 1.0 |
| Yanacaq | 2.0 | 1.9 | 2.5 | 3.5 | 3.7 | 2.0 | 2.9 |
| Ehtiyat hissələri | 7.6 | 6.4 | 5.4 | 3.7 | 4.5 | 5.4 | 6.1 |
| Kənar təşkilatların göstərdiyi xidmətlərin ödənişi | 10.4 | 10.9 | 25.8 | 28.8 | 21.8 | 27.0 | 27.6 |
| Material xərcləri, cəmi | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |

*"Azərbaycanın kənd təsərrüfatı.Statistik məcmuə. Bakı, 2010. s.144-145" materialları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

Aqrolizinq ASC-nin aqrotexniki xidmət sferasının genişlənməsi tənzimləmə imkanlarının genişləndirilməsinə,aqrotexniki qaydalara riayət olunması üçün əlverişli şərait yaradır.

Təsərrüfatçılığın maliyyə əsaslarının səciyyələndirilməsi kənd təsərrüfatının inkişafının tənzimlənməsinin mövcud sisteminin vəziyyətinin qiymətləndirilməsi baxımından vacib məsələdir. Aqrar iqtisadiyyatın inkişafının maliyyə aspektlərini əks etdirən göstəricilərin sayca çoxluğu və tərkibcə müxtəlifliyi, istehsal-maliyyə fəaliyyətinin qiymətləndirilməsi üçün istifadə olunan göstəricilər sistemində ümumiləşdirici göstəricini müəyyənləşdirməyi tələb edir. Məlum olduğu kimi, bu baxımdan kənd təsərrüfatı məhsullarının satışının rentabelliyi göstəricisi öncül yer tutur.

2005-2009-cu illərdə fərdi sahibkarlıq subyektləri üzrə məlumatlar əsasında ümumilikdə kənd təsərrüfatının, onun ayrı-ayrı sahələrinin məhsullarının satışının rentabelliyi səviyyəsinin təhlili aşağıdakıları söyləməyə əsas verir: təhlil edilən dövr ərzində ümumilikdə kənd təsərrüfatı məhsullarının satışının rentabellik səviyyəsi azalaraq 71.9%-dən 36.5%-ə enmişdir (cədvəl 4). Belə vəziyyət dünyada davam edən iqtisadi böhranla, aqrar sahənin satın aldığı resursların bahalaşması ilə, qismən sahədaxili rəqabətin güclənməsi ilə əlaqədardır. Onu da qeyd edək ki, digər təsərrüfatçılıq subyektlərində o cümlədən, kənd təsərrüfatı müəssisələrində məhsul satışının rentabelliyi səviyyəsi dəfələrlə aşağı olmuşdur.

*Cədvəl 4. Fərdi sahibkarlıq subyektləti üzrə kənd təsərrüfatı məhsullarının satışının rentabelliyi (%-lə)*

| Göstəricilər | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|
| Kənd təsərrüfatında | 71.9 | 62.7 | 50.5 | 45.8 | 36.5 |
| Bitkiçilikdə | 86.6 | 71.3 | 53.0 | 43.7 | 36.6 |
| Heyvandarlıqda | 54.4 | 53.6 | 47.1 | 45.5 | 36.5 |

*"Azərbaycanın statistik göstəriciləri .Bakı: Səda,2010.s.518-519" materialları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

Cədvəl 4-də 2005-2009-cu illərdə fərdi sahibkarlıq subyektləri üzrə kənd təsərrüfatı məhsullarının satışının rentabelliyi xarakterizə edilmişdir.

Müxtəlif təsərrüfatçılıq formalarında gəlirlərin idarə edilməsi zamanı fərqli göstəricilər təhlilinə cəlb olunur. Onların indikator rolunda çıxış etməsi, əmtəəlik məhsulun yeridilişi prosesinin tənzimlənməsi imkanları ilə şərtlənir.

Gəlirləri şərtləndirən amillərin təsirinin xarakteri və əhatə dairəsindən asılı olaraq, onların tənzimlənməsi zərurəti müəyyənləşdirilə bilər. Yeri gəlmişkən qeyd edək ki, kənd təsərrüfatı məhsulları istehsalçılarının xərclərinin əhəmiyyətli hissəsini öz üzərinə göstərməklə dövlət, həm aqrar istehsal subyektlərinin gəlirlərinin artmasına nail olur, həm də son istehlakçının mənafeyini qorumaq üçün təsirli vasitə əldə edir. Başqa sözlə, kənd təsərrüfatı məhsulları istehsalçılarının xərclərinin qismən kompensasiyası istehsalçı və istehlakçı maraqlarının qorunmasında paritetliyin təminatına xidmət edir.

Əlbəttə, müvafiq mexanizmin hazırki vəziyyətdə təkmilləşdirmələrə ehtiyacı vardır. İlk növbədə, bu xərclərin  kompensasiyası  üçün daha dolğun informasiya bazasının istifadəsini, maliyyə axınlarının optimallaşdırılmasını və tranzaksiya xərclərinin azaldılmasını nəzərdə tutmalıdır.

Respublikamızda kənd təsərrüfatının inkişafının tənzimlənməsi, xüsusilə stimullaşdırılması sistemində bir sıra sahələrin subsidiyalaşdırılması xüsusi rola malikdir. Taxıl istehsalının artıq üç ildir ki, subsidiyalaşdırılması öz müsbət nəticələrini verməkdədir. Bitkiçilik məhsullarının satışının heyvandarlığa nisbətən daha yüksək rentabelliyə malik olması, qismən bunun nəticəsidir.

Aqrar sahədə intensiv inkişafın tənzimlənməsinin təsirli maliyyə vasitəsi kimi məhsul istehsalının güzəştli kreditləşdirilməsi üçün görülən tədbirlərə diqqətə layiqdir. Sahibkarlığa Kömək Milli Fondu (SKMF) tərəfindən kreditləşdirilən müvafiq layihələrin sayı artmış, miqyası genişləndirilmişdir:

Cədvəl 5-də 2004-2009-cu illərdə SKMF tərəfindən kənd təsərrüfatı məhsulları istehsalı və emalı layihələrinin güzəştli kreditləşdirlməsi üzrə göstəricilər əksini tapmışdır [4]:

*Cədvəl 5. SKMF tərəfindən kənd təsərrüfatı məhsulları istehsalı və emalı layihələrinin güzəştli kreditləşdirilməsi*

| İllər | Layihələrin sayı | | Kreditin məbləği, min manatla | |
|---|---|---|---|---|
| | *İstehsal* | *Emal* | *İstehsal* | *Emal* |
| 2004 | 1055 | 70 | 7579,0 | 2747,9 |
| 2005 | 1767 | 44 | 12987,8 | 7053,4 |
| 2006 | 1256 | 54 | 23484,0 | 12576,5 |
| 2007 | 572 | 29 | 24130,4 | 13940,6 |
| 2008 | 547 | 25 | 28759,7 | 8442,5 |
| 2009 | 550 | 24 | 29040,0 | 8510.0 |

Dövlət büdcəsi vəsaiti hesabına 2004-2009-cu illər ərzində SKMF tərəfindən kənd təsərrüfatı məhsulları istehsalına 964.4 milyon manat məbləğində güzəştli kredit verilmişdir. Həmin vəsaitlər, kifayət qədər əsaslandırılmış biznes-planlar üzrə verilir və güzəştli kreditlərin istifadəsi prosesinin bütün mərhələlərinə nəzarət edilir.

## 3. Nəticə

Son məlumatlara görə bitkiçilik məhsullarının istehsal xərclərinin strukturunda, əsas xərc maddələri üzrə xüsusi çəkilərheyvandarlığa nisbətən aşağıdır. Material xərcləri üzrə həmin göstəricilər, müvafiq olaraq 49.6% və 52.9%, əsas vəsaitlərin amortizasiyası üzrə 4.8% və 5.9% olmuşdur.

Material xərcləri kənd təsərrüfatı istehsalının strukturunda ən böyük xüsusi çəkiyə malikdir və ümumi həcmin təqribən yarısını təşkil edir. Kənd təsərrüfatı istehsalına material xərclərinin özünün strukturunun təhlili tənzimlənən göstəricilərin dinamikasına münasibət bildirməyə imkan verir.

Son 14 ildə toxum və əkmə materiallarının kənd təsərrüfatı istehsalına material xərclərində payı artaraq 6.6%-dən 26.2%-ə çatmışdır. 2000-ci ildən sonrakı dövrdə yemlə, elektrik enerjisi ilə, ehtiyat hissələrlə təminat xərclərinin kənd təsərrüfatı istehsalına material xərclərində payı aşağı düşmüş, digər maddələr üzrə bir qədər artım müşahidə olunmuşdur.

Kənd təsərrüfatı məhsulları istehsalına ayrılan güzəştli kreditlərin məbləği 2004-2009-cu illər ərzində dönmədən artmışdır. 2004-cü ilə nisbətən 2009-cu ildə bu artım 4 dəfə olmuşdur. Bir layihəyə, orta hesabla düşən kredit məbləği kənd təsərrüfatı məhsulları emalı sferasında baha böyükdür. Kənd təsərrüfatı məhsulları emalı sahəsinin güzəştli kreditləşdirilməsi layihələrinin icrası prosesinin tənzimlənməsi mexanizmi xeyli təkmilləşdirilmiş, o cümlədən aqrar ixrac potensialının dəstəklənməsi üçün fəal tənzimləyici tədbirlər həyata keçirilir.

**Ədəbiyyat siyahısı**


1. Zeynallı Ə. Sahibkar fəaliyyətinin qiymətləndirilməsi və təhlili prinsiplərinin təkmilləşdirilməsi istiqamətlərinə dair. // «Azərbaycanda maliyyə nəzarəti və audit» elmi-praktik konfransın materialları. Bakı: 1999, s.176-177
2. Azərbaycanın kənd təsərrüfatı.Statistik məcmuə. Bakı: Səda, 2010. 576 s.
3. Azərbaycanın statistik göstəriciləri. Bakı: Səda, 2010. 840 s.
4. www.economy.gov.az

**Ахмедзаде Эмин Немат оглы,**
докторант Азербайджанский Научно Исследовательский
Институт Экономики и Организации Сельского Хозяйства

## Анализ нынешней системы регулирования сельскохозяйственного производства

Аннотация

*Целью исследования* - является анализ существующей системы регулирования сельскохозяйственного производства и выявление резервов.

*Методология исследования* - системный подход, сравнительный анализ, метод дедукции.

*Выводы исследования* - выявление резервов на ближайшую перспективу, разработка предложений по повышению эффективности регулированию сельскохозяйственного производства.

*Ограничения исследования* - требует исследования на более широкой эмпирической базе .

*Практический значимость исследования* - совершенствование системы регулирования сельскохозяйственного производства.

*Оригинальность исследования и научная новизна* - исследования является оригинальным единством традиционных и креативных подходов.

**Ключевые слова:** *аграрный сектор, регулирование, цены и налоги.*

Məqalə redaksiyaya daxil olmuşdur: 10.12.10.
Təkrar işləməyə göndərilmişdir: 17.12.10.
Çapa qəbul olunmuşdur: 18.01.11.